# DİLÇİLİK

UOT 81 41;801.7

FİRUDİN RZAYEV*

## NİSABA QƏDİM TÜRK TANRI ADININ NAXÇIVAN ƏRAZİSİ TOPONİMLƏRİNDƏ İZLƏRİ

*Məqalədə əski türk mifik təfəkküründə xüsusi yeri olan Nisaba qədim tanrı adının Naxçıvan ərazisi toponimlərindəki izlərindən bəhs olunur. Şumer yazılarında da adı keçən Nisaba tanrısının tarixi m.ö. III minilliklərə söykənməklə, ərazi toponimik adlarında günümüzə qədər qalmışdır. Bu qədim mifin Naxçıvanla bağlılığı indiyədək Azərbaycan və türk alimləri tərəfindən tədqiqi və adların izahı verilməmişdir. Məqalədə qədim Naxçıvan ərazisi toponimlərinin oykonim, oronim və hidronimlərində bu tanrı adı faktlar əsasında təsdiq edilir.*
*Tədqiqatda Naxçıvan coğrafi arealında bu miflə bağlı toponimlərin etimoloji izahları verilir. Nisaba tanrı adının prototürklərlə bağlı adlarda qalması bu mifik inancın qədimliyini sübut edir. İstər Naxçıvan, Şumer, istərsə də Azərbaycan və digər türklərdə bu adın yeri məqalədə elmi faktlarla əsaslandırılır.*

**Açar sözlər:** *Nisaba, Naxçıvan, Azərbaycan, Şumer, oykonim, oronim, hidronim.*

Qədim dünya sivilizasiyası mərkəzlərindən biri kimi, bəşəri sivilizasiya mərkəzləri arasında xüsusi yeri olmuş Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar respublikası ərazisi, bu gün də öz qədim arxeoloji mədəniyyət nümunələri ilə dünya ictimaiyyətinin maraq dairəsindədir. Böyük sivilizasiyaların tarixi, eləcə də bəşəri mədəniyyətin təkamülü üçün yüksək bir əhəmiyyət daşıyan bu qədim ərazi, m.ö. III minilliklərdən başlayaraq eramızın XIX əsrinə qədər böyük siyasi proseslərin meydanına çevrilmişdir. Lakin bu siyasi proseslər ərazidə on minillər öncə yaşanmış mədəniyyəti, əsasən də mifik dünyagörüşün nişanələrini tam olaraq öz üzərindən silib atmamış, onun qədim dövr inanc mədəniyyəti toponimik qatda günümüzə qədər gəlib çatmışdır.

Əgər xatırlasaq yəhudi İosif Flavinin yazılarında qədim Naxçıvan ərazisinin dünya sivilizasiya mərkəzlərindən biri olması, bu ərazini "bəşər nəslinin ilk beşiyi" adlandırıb, şəhəri "Nuhun saldığı ilk şəhər" kimi göstərməsi təbii ki, tarixi reallıqlara bağlı olmuşdur (5, s. 14, 57, 93) Bu cür tarixi faktlarla bağlı eyni fikirlərin K.Ptolomey "Coğrafiya" əsərində də səsləndiyini, bu şəhərin "Naksuana" yazılışında təkcə Qafqazın deyil, bütün Şərqin ən böyük şəhərlərindən biri olduğunu təqdim etməsi (11, s. XXII), təsadüf deyil, antik mənbələrdə bu əlamətlərin yer almasıdır.

Təbii ki, ən qədim mənbələrdə "Nuhun saldığı ilk şəhər", təkcə Qafqazın deyil, bütün Şərqin ən böyük şəhərlərindən biri olduğu mənbələr əsasında təsdiq olunan Naxçıvan ərazisinin mədəniyyəti arxeoloji baxımdan m.ö. VI minilliyə söykənirsə, deməli bu mədəniyyətləri yaradan tayfaların mifik inancı da o dövrlərlə səsləşən bir tarixi faktdır. Biz bir neçə yazılarımızda elmi faktlara və mənbələrə istinadən m.ö. V-IV minilliklərə söykənən və qədim Naxçıvan ərazisində izləri toponimik sistemdə qalan əski türk miflərindən bəhs etmişik (13, s. 218-223).

Tarixi qaynaqlara müraciət etdikdə, qədim Naxçıvan-Naxər ölkəsi ərazilərində m.ö. VI minillikdən başlamaqla III minilliklərdə də prototürklərin məskun olduqlarını, ərazidə öncə yaşayan türk tayfalarının varisləri olmaqla, o dövr Tanrı inancı ilə bağlı adları da öz inanclarında yaşatdıqlarına təsadüf edirik. Naxçıvan ərazisində m.ö. III minilliklərə aid Tanrı adlarının olması ayrı-ayrı dövrlərə görə sistemləşdirilərək, tərəfimizdən tədqiqata cəlb olunmuşdur (13, s. 218-223). Qədim mənbələr, arxeoloji nümunələr və əsasən də ərazinin toponimik sistemindəki mi-

foloji əlamətlər bu mədəniyyətin ərazidə yaşamış öncəki dövr prototürk tayfalarına aid olmaqla bərabər yeni inanclar da daşıdığını və ərazinin bu qədim türklərə məxsus torpaqlar olduğunu birmənalı olaraq tam təsdiq edir (15 , s. 192, 381, 514-515).

Bəs bu qədim ərazidə hansı tanrı mifləri öz izlərini saxlamışdır? Azərbaycanın tarixi torpaqları, qədim Naxçıvan ərazisindəki istər oykonimik, oronimik, istərsə də hidronimik və s. coğrafi adlar sistemində biz m.ö. VI-III minilliklərdə prototürklərin inancında yer alan Koyaş, Tork, Şar, Sax, Kinq, Maq-Qam (Qoq Maqoq), Qidar, Dur/Dor kimi Tanrı adları ilə qarşılaşırıq. Bu miflərdən biri də m.ö. III minillikdə əsasən Naxər türklərinin inancında yer alan Nisaba Tanrı adına da rast gəlirik. Qeyd edək ki, bütün bu mifoloji adlar antik mənbələrdə, miflərlə bağlı ensiklopedik əsərlərdə və tədqiqatlarda da öz əksini tapmaqdadır (3, s. 130-131).

Biz xeyli sayda türk mifi ilə bağlı mənbələrdə, şərq tarixinə dair qaynaqlarda və salnamə yazılarda Nisaba Tanrı adı ilə rastlaşırıq ki, bu ad qədim Naxçıvan-Naxər ölkəsi ərazisinin yerli tayfaları olmuş Naxər və digər prototürk tayfalarının mifində yer almış onların dil imkanları hesabına yaranmış bu ərazinin toponimik adlarında da təkrarlanmışdır. Təbii ki, burada yaşamış xeyli sayda bu və digər türk tayfalari öz yaşam tərzində, kainatı qavrayışında öz mifik inanclarını ortaya qoymuşlar.

Mənbələr m.ö. III minillikdə istər türk, istər şumer tanrılarında An Tanı adına təsadüf edirik ki, Nisaba Tanrısı onun övladı kimi göstərilir. Qeyd edək ki, An, ilk yaradandır və şumerlərdə "Mən ilk yaranan Anın Kiqalda açan çiçəyiyəm" ifadəsi ilə şumer yazısında təsvir edilir və əsasən m.ö. V-IV minilliklərin Tanrı panteonunda yer alır ki, biz Naxçıvan ərazisində İlan dağ-"Anın yurdu-İl+An", Anzır-"Anın işığı-An+sır" kimi adları buna misal olaraq göstərə bilərik. Bu mif Azərbaycan türkləri ilə yanaşı ümumtürk dillərində işlənən Ana-"Kiçik-An, kiçik yaradan" sözündə qalmaqdadır. Bu Tanrı adı m.ö. III minillikdə bu ərazidə yaşayan tayfaların, eləcə də sonralar Altay və Orta Asiya ərazilərinə köç edən türklərdən bu ərazinin yerli sakinləri olan türklərin də mifinə Anu şəklində adlamış və bu gün də burada inanc kimi təkrarlanmaqdadır (6, s.120; 9, s. 75). Türk və Şumer miflərindəki Anın övladı olan qədim Nisaba Tanrı adı da mənbələrin məlumatlarında əsasən m.ö. III minilliklə bağlı tarixi proseslərdə və bu dövr tarix səhnəsindəki prototürklərin inancında təsadüf edilir. Bu tanrı adı qədim yazılı mənbələrin məlumatlarında, eləcə də mifik inanclarla bağlı tədqiqat və ensiklopedik əsərlərdə həm eşq, qoruyan, həm də bitki tanrısı kimi əksini tapır (7, s. 62; 10, s. 203, 223, 491).

Mənbələrə eşq Tanrısı kimi düşən Nisaba adına qədim Naxçıvan ərazisindəki xeyli sayda toponimik adda təsadüf edirik ki, bu adlar müəyyən məna çalarları ilə ifadə olunur. Bu mifin m.ö. III minillikdə türklərin Tanrı inancında yer almaqla bərabər, həm də qədim şumerlərin mifik inanc mədəniyyətində də eyni adla xüsusi yer alması m.ö. III minillikdə Kassi türklərinin Şumer ərazilərini işğal edib, onları 3 yüz il öz hakimiyyəti altında saxlaması ilə də bağlı ola bilər. Çünki ərazini batlara bölüb onlara xanları (əsərdə xian) rəhbər təyin edən kassilər, təbii ki öz miflərini də onlara aşılaya bilər (6, s. 30; 12, s. 248).

Hazırda Naxçıvan toponimik sisteminin ayrı-ayrı qatlarında təkrarlanan bu adla Naxçıvan və Mesopotamiya, Şumer mədəniyyətlərinin bir biri ilə sıx bağlı olduğunu sübut edir. Bu qədim ərazinin toponimik sistemi, əsasən də buradakı oykonimlərin, eləcə də oronim və hidronimlərin formalaşmasında öz izlərini yaşadan Nisi/Nisaba Tanrı adının təkrarı m.ö. III minilliklərdə Naxçıvan ərazisindəki digər prototürklərin inancında da yer almışdır. Nisi/Nisaba Tanrısı bəzi mənbələrdə Naxi (Nuxay)i kimi də təkrarlanır. Qədim türk dillərində bu söz Naşi şəklində (diqqət et arxiv-arşiv x=ş paralelliyi-F.R.) insanların xeyrinə məsləhət verən xeyirxah tanrıdır (2 , s. 355). Midiya ərazisi tayfaları arasında bu mif "Nasu" yazılışında "azadlığı sevən" qədim bir tanrı kimi qeyd edilir. Bu tanrı adı Nisaba şəklində isə An tanrısının qızı olmaqla "eşq tanrısı", eləcə də "ruzi ilahəsi" kimi m.ö. III minillikdə türk tanrı inancında yer almışdır.





Buna baxmayaraq dünya xalqlarının mifinə dair, mənbələrdə rus siyasəti ilə bu tanrının İran, Ərəb mifi kimi də göstərildiyini görürük. Lakin bu mif əsasən türklərə aid mif kimi verilir (6, s. 30; 10, s. 203, 223-224). Qeyd edək ki, Strabonun yazılarında biz Araz çay adı ilə yanaşı Albaniyadan cənubda Sakasena və Niseya vilayət adlarına təsadüf edirik ki, bu ərazi qədim Naxçıvan-Naxər ölkəsi ərazisi idi və buradakı Niseya vilayəti Nisi tanrısının adını daşıyırdı (14, s. 837-941).

Qədim yazılı mənbələrə diqqət etdikdə, biz m.ö. II minilliyə aid tarixi məlumatlarda yer alan Nasu və Nisi/Nisaba tanrı adının Azərbaycan türklərinə məxsus Avestada ölüm mələyi kimi görürük. Lakin o, Nisaba adında prototürk və şumer miflərində məhəbbət və eşq tanrısıdır. Nasu qədim türk mifi, ölüm mələyi sovetlər dövründə nəşr olunmuş ensiklopedik əsərlərdə siyasi məqsədlə İran mifi olaraq türk mifi tarixindən uzaqlaşdırılmış, lakin tarixinin m.ö. II minilliyə aid olduğu qeyd edilmişdir (10, s. 203, 223-224, 491). Bu mələk insan öldükdən sonra ölmüşün ruhuna sahib çıxmaqla, cəsədi murdarlayır və onu tez çürütməyə çalışır. Ölü sahibləri isə bunun əksinə getməklə, şamançılıq ayinlərinə uyğun xüsusi ayinlər icra edərək, dualar oxumaqla cəsədi paklandırmağa cəhd edirlər (1, s. 7, 2; 8, 71). Bu fikrin tamamilə yanlış olduğunu, onun Azərbaycan türklərinə aidliyini bir tarixi fakt da tamamilə sübut edir. Mənbələrə diqqət etdikdə, Avesta, qədim Zərdüştlük inancının kitabını tədqiq edən İ.Purdavudin bir ifadəsi ilə qarşılaşırıq. O, bu istiqamətdə Vundidad bölümünə istinadən yazır: "Zərdüşt yunan mənbələrində Qazaka, ərəb mənbələrində Cənzə, müasir dövrdə isə Təxti Süleyman adlanan yerdə doğulmuşdur. Elə bu səbəbə görə də Urmiya gölünün suyu həmin dövrdə müqəddəs hesab edilirdi. Qazaka atəşgahları içərisində Azərgüşnasp məbədi daha məşhur idi" (1, s. 7, 3-4). Əgər biz burada onun doğulduğu yerlərə Qazak, Gənzə/Gəncə və bu inancın ən müqəddəs atəşgahı Azərgüşnaspı nəzərə almaqla, burada müqəddəs su kimi hesab edilən Urmiya gölü ifadələrini əsas götürsək, bu bütövlükdə qədim Naxçıvan-Naxər ölkəsi ərazilərini əhatə edir. Burada Qazak türk tayfa adı və m.ö. IV minillikdən də qabaq tarix səhnəsində olmuş Kas türklərinin varisi, Gənzə/Gəncə isə m.ö. III minillikdə tarix səhnəsində Şu türkləri ilə bərabər olan Sak türklərinin varisləridir (12, s. 246-250). Azərgüşnaspı atəşgah adı isə Asər türklərinin adı və ona əlavə edilmiş güşnasp-"açıb nəsihət verən" ərəb sözündən ibarətdir ki, bu sonradan artırılmışdır (4, s. 308, 462). Naxçıvan- Naxər ölkəsi isə Urmiya, Göyçə və Van göllərinin arasında bu göllərə sahib bir ölkə idi ki, Misir Fironu III Tutmosun salnamələrində də xatırlanır. Bu tarixi faktlar isə göstərilən qədim mifin tam olaraq prototürklərə, əsasən də Azərbaycan türklərinə aidliyini birmənalı sübut edir (12, s. 582-116).

Ərazidə oronimik adlar içərisində mifoloji Nisi tanrısı adına təsadüf edirik ki, Şumər mənbələrində Nisir dağ adı "eşq tanrısı" adı mənasında təkrarlanır ki, dağ öz adını Nisaba tanrısı adından götürmüşdür (6 , s. 30). Naxçıvan ərazisi oykonimik sistemində biz yalnız Nəsirvaz adında bu mifin təkrarını görürük. Bu ad şumerlərdəki Nisir dağı adını eynilə təkrarlamaqla qeyd etdiyimiz kimi Nəsirvaz məntəqə adı "Baş Nisir" mənasında "baş" sözünün ada qoşulması ilə şumerlərdə bu adı təkrarlayır. Bu qədim mifin, toponimik adlardakı bütün tarixi izləri eynilə oronimik və hidronimik adlarda da təkrarlanır.

Şumər mənbələrində Nisir dağ adı və Nisaba-"eşq tanrısı" adları Ordubad rayonunun Gəmiqayaya yaxın Nəsirvaz oykonimi ilə yanaşı bu ərazidəki Nəsirvaz dağı, Nəsirvaz zirvəsi, Nəsirvaz dərəsi, Nəsirvaz düzü, Nesli dağı kimi oronimik adlarda, eləcə də Nəsirvaz çayı, Nəsirvaz arxı, Nəsirvaz bulağı kimi hidronimik adlarda təkrarlandığını görürük. Əgər diqqət etsək, bu adların formalaşmasında yalnız "dağ", "düz", "zirvə", "çay", "dərə", "arx", "bulaq" kimi mənfi və müsbət quruluşlu coğrafi ad- nomen göstəriciləri iştirak edir, lakin əsas mif göstəricisi "Nisi" olaraq öz yerində qalır. Bununla bərabər bu tipli oronimik və hidronimik adlara biz Ordubad rayonunun Tivi kəndində Nasağa-"Uca Nisaba" yurdu, Qoşadizə kəndində

Nisağa düzü, Nisağa bulağı, Xaraba Gilan yaxınlığında Nisağa çeşməsi, Unus kəndində Nistəkər-"Nis ərinin dağı" adlarında rast gəlirik. Bu adların da formalaşmasında əsasən qədim türk ağa-"uca", tak-"dağ" və müasir dövrdə də dilimizdə işlənən ər- "igid" kimi sözlərin iştirakını görürük (8, s. 15, 560) Bu formalaşma üslubu bir daha adların tamamilə türk sözlərindən ibarət olmaqla bu dilin imkanları hesabına formalaşdığını sübut edir.

Tədqiqatçılar üçün də maraqlı olan bir hidronimə qısaca nəzər salmaq istərdik. Culfa rayonu ərazisində və bütün Naxçıvan ərazisi üçün hamının tanıdığı An/Anu tanrı adından yaranan İlan dağın-"An yurdunun dağı" şərq döşündə Nisa qala və onun yenə də şərq ətəyində biz Nisa bulaq adına rast gəlirik. Burada Nisa qala- "Eşq qalası", bulaq isə "Eşq bulağı" kimi mənalar daşıyan oronim və hidronimlərdir. Qeyd edək ki, Nisa bulağı el arasında "sonsuzların daha çox müraciət etdiyi və diqqətini çəkən" müqəddəs bir bulaq kimi məşhurdur. İlan dağın ətrafındakı kəndlərdə sonsuzların-övlad sahibi olmayanların bu bulaqdan su içməklə övlad qazandıqları haqqında xeyli sayda yaşlı nəslin söhbətlərinə rast gəlirik. Bunlardan Xoşkeşin kənd sakini 119 yaşlı İmanova Telli Hətəmxan qızı və ondan dörd il sonra eyni yaşda dünyasını dəyişən, Koreymər kənd sakini 119 yaşlı Hacıyeva Səkinə Hacı qızı, Baş Anzır kənd sakini 97 yaşlı Məmişova Gülxanım Kərbalayı Səttar qızının söhbətlərində bu suyun sonsuzlara övlad verdiyi açıqlanır və bu ayinin yerinə yetirilməsində suyun paklandıqdan sonra içildiyi bildirilirdi (Toplama materialları zamanı müsahibə aldığımız məlumatçılar-informatorlar-F.R.). Onu da qeyd edək ki, Baş, Orta və Ayaq Anzır, eləcə də Koreymər kəndlərin əhalisi "mərkəzləşmə" siyasəti ilə əraziləri ermənilərə vermək məqsədi ilə 1950-65-ci illərdə Culfa rayon Xoşkeşin, Xanağa və Əlincə kəndlərinə köçürülmüş, bu kəndlər tamamilə boşaldılmışdır. Hazırda bu bulaq pir kimi Xoşkeşin, Gal, Dizə və s. kənd camaatının tez-tez süfrə açdığı, ziyarət etdiyi müqəddəs bulaqlardan biridir. Ümumilikdə götürdükdə bu tanrı adları ilə yaranmış oykonim, oronim, hidronimlərə diqqət etdikdə, onlar əsasən ilk türk mifi kimi oykonimik adlarda şumer mifindəki adların da daşıdığı eyni mənaları təkrarlayır.

Biz XV-XVI əsrlərə dair qaynaq məlumatları və arxiv sənədlərində ümumilikdə Naxçıvan ərazilərində minlərlə məntəqə adında, oronimik və hidronimik adlarda bu mifik təfəkkürün, eləcə də bu miflərin sahibi olmuş ayrı-ayrı prototürk tayfalarının adlarına təsadüf edirik. Burada çox qədimlərə söykənən tarixi faktları özündə yaşadan mifik izlər ərazidəki mədəniyyətin prototürk-proto Azərbaycan mədəniyyəti olduğuna, bu qədim ərazinin Mesopotamiya ilə mifik və etnogenetik əlaqələri olduğuna danılmaz tarixi sübutlardır.

Nəticə olaraq qeyd edə bilərik ki, m.ö. III minilliklə bağlı bütün bu mifik inanc əlamətləri, onların toponimik sistemin oykonim, oronim, hidronimində, eləcə də inanc, pir və müqəddəs yer adları-teonim qatlarında təkrarı bu inancların əsasən m.ö. VI minillikdən başlandığını göstərir. Bundan sonra prototürklərin bu mifləri V-IV minilliklərdə də o dövr tarixi proseslərin iştirakçıları olmuş digər türklərin də inanclarında yer almaqla şimala doğru tarixi köçlərdə ümumtürk arealına yayılmışdır.

## ƏDƏBİYYAT


1. Avesta. Bakı: İşıq, 1992, 344 s.
2. Древнетюркский словарь. Ленинград: Наука.1969, 676 с.
3. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 s
4. Ərəb və fars sözləri lüğəti. Bakı: Yazıçı,1985, 1026 s.
5. Иосиф Флавий. Иудейские древности/ Пер. с греческого Г.Г.Генкеля, т. I, СПб., 1900, 716 с.
6. Kramer S.N. Tarix Şumerdən başlanır. Bakı: Kasımi, 2009, 280 s.120;







7. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
8. Mahmud Kaşğari. Divanü lüğat-it-türk. Dizin , Ankara, 1986, 885 s.
9. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
10. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская энциклопедия.1988, 719 с.
11. Птолемей Клавдий. Руководство по географии/Пер. К.С.Апта и В.В.Латышева//Античная география. Москва: Географиздат, 1953, 368 с.
12. Rzayev F.H.Naxçıvan əhalisinin etnogenezi tarixindən I c. (miladdan öncə VI-III), Bakı: ADPU-nun nəşri 2013, 528 s.
13. Rzayev F.H. Naxçıvan ərazisindəki prototürk tayfa adlarının yaranmasında qədim türk mifi.//AMEA Naxçıvan Bölməsi, Xəbərlər, Naxçıvan: Tusi, 2017, № 1, s. 218-223
14. Страбон. География в 17 книгах. Пер. статья и комментарий Г.А. Стратановского. Москва: Наука, 1964, 941 с.
15. Всемирная история. Т. I, Москва: Госиздат, 1956, 746 с.


***AMEA Naxçıvan Bölməsi***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***e-mail: firudinrzayev@gmail.com***

**Firudin Rzayev**

## THE TRACES OF NISABA ANCIENT TURKIC GOD NAME IN THE TOPONYMS OF NAKHCHIVAN TERRITORIES

The article deals with the traces of Nisaba ancient God name in the toponyms of Nakhchivan territory. It takes a special place in ancient Turkish mythical thought. The history of the Nisaba God name mentioned in the writings of Sumerian B.C. based on the III millennium and kept in the toponymic names until today. The relation of this ancient myth with Nakhchivan has not been given an explanation by Azerbaijani and Turkish scientists our days. In this article on the basis of facts this God name is confirmed ancient oronimyc and hydronyms names exist in Nakhchivan toponyms.

The etymologioal explanations of the toponyms related with this myth and exist in in the geographical area of Nakhchivan are given. As the Nisaba God name remains in these proto-turkish names proves its ancient mythical faith. On the basis of the scientific facts the place of this name both in Nakhchivan, by Azerbaijani, Shumer, also in Altay and other Turkish names are showed.

**Keywords:** *Nisaba, Nakhchivan, Azerbaijan, Shumer, oykonym, oronym, hydronym.*

**Фирудин Рзаев**

## СЛЕДЫ ИМЕНИ ДРЕВНЕТЮРКСКОГО БОГА НИСАБА НА ТОПОНИМАХ НАХЧЫВАНСКОЙ ТЕРРИТОРИИ

В статье рассказывается о следах древнегреческого бога Нисаба в топонимах Нахчыванской территории, который занимае важное место в тюркском мифическом мышлении. В шумерских сочинениях также упоминается история Бога Нисаба. Опираясь на III тысячелетие, осталась до наших дней в топонимических названиях территории. Связь

этого древнего мифа с Нахчываном до сих пор не изучена азербайджанскими и турецкими учеными и не разъяснены их названия. Имя этого бога в ойкониме, орониме и гидрониме топонимов Древней Нахчыванской территории подтверждается на основе фактов.
В исследовании дается этимологическое объяснение топонимов, связанных с этим мифом в Нахчыванской географической зоне. То, что имя Бога Нисаба остается в именах, связанных с прототюрками, доказывает древность этой мифической веры. И в Нахчыване, и в Шумере, и в Азербайджане, и в других турках место этого имени в статье обосновано научными фактами.

**Ключевые слова:** *Нисаба, Нахчыван, Азербайджан, Шумер, ойконим, ороним, гидроним.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

***Daxilolma: İlkin variant 16.06.2019***
***Son variant 23.09.2019***